# Qəbələ Dövlət Rəsm Qalereyasının 10 yaşı tamam oldu

2006-cı ilin fevral ayından fəaliyyətə başlayan Qəbələ Dövlət Rəsm Qalereyası şərəfli bir yol keçmişdir. Ötən illər ərzində qalereyada yerli və ölkə rəssamlarının, bədii tərtibatçıların, qrafika ustalarının əsərlərindən ibarət sərgilər təşkil olunmuş və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Qalereyaya fəaliyyətə başlayandan 2015-ci ilin iyul ayınadək rəssam Malik Ağayev rəhbərlik etmişdir. Onun öz fırçası ilə yaratdığı əsərləri Qəbələdə keçirilən Beynəlxalq İncəsənət sərgilərində nümayiş olunmuş, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmış və satılmışdır.

Hal-hazırda Qalereyanın direktoru Cavidan Məmmədovdur. Burada 8 nəfər çalışır. Rəsm, toxuculuq dərnəkləri fəaliyyət göstərir və məktəblilər, gənclər burada məşğul olurlar.

19 fevralda Qalereyanın



yaradılmasının 10 illiyi ilə əlaqədar Qəbələ Mədəniyyət mərkəzində təşkil olunmuş tədbirdə 5 yerli rəssamın və 5 tətbiqi sənət ustasının əl işləri nümayiş olundu.

Mərasimi açıq elan edən rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova qalereyanın yaradılmasından ötən 10 il ərzində görülmüş işlərdən, qazanılan uğurlardan söz açmış, yaradılmasında xidməti olanlara minnətdarlığını bildirmişdir.

Mədəniyyət mərkəzinin direktoru, rəssam Malik Ağayev, Dövlət Rəsm Qalereyasının direktoru Cavidan Məmmədov və başqaları çıxış edərək iştirakçıları salamlamış, ötən müddət ərzində keçirilən sərgilər, görüşlər barədə danışmış, iştirakçılara öz minnətdarlıqlarını bildirmişlər.

Tədbir şirin çay stolu arxasında davam etmişdir.

**Oqtay MƏMMƏDOV.**

# Qəbələ sakinlərinin tibbi müayinələri davam etdirilir

Prezident cənab İlham Əliyevin tapşırığına əsasən, respublikamızın hər yerində olduğu kimi, Qəbələ rayonunda da əhalinin tibbi müayinədən keçirilməsi uğurla davam etdirilir.



Bununla əlaqədar əhalinin kütləvi dispanserizasiyası üçün rayonda hər cür şərait yaradılmışdır. Müayinələr rayon mərkəzi xəstəxanasında, diaqnostika mərkəzində, eləcə də qəsəbə və kənd tibb məntəqələrində həyata keçirilir. Yüksək ixtisaslı həkimlər vətəndaşları qabaqcadan tərtib olunmuş qrafik əsasında müayinə edir, zərurət olduqda onlar müalicəyə cəlb olunurlar.

Bu aksiya bir daha onu göstərir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin fövqündə insan amili, vətəndaşların rifahının yaxşılaşdırılması və sağlamlığının qorunması məsələləri dayanır.

Rayonda tibbi müayinələrin mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə yaradılan komissiya tərəfindən ciddi hazırlıq işləri görülmüş, tibb ocaqları bütün lazımi dərmanı və avadanlıqlarla təchiz edilmişdir. Fevral ayının 15-dən 29-dək rayonun səhiyyə ocaqlarında keçirilən aksiya zamanı 4093 vətəndaş tibbi müayinə olunub. Xəstəlik aşkar edilən şəxslər Qəbələ rayon Mərkəzi Xəstəxanasında müalicə edilirlər. Müayinələrdən sonra 35 nəfər stasionar, 217 nəfər ambulator müalicəyə cəlb olunub. Xəstəliyi daha ağır olan 60 nəfər isə müalicə üçün Bakı şəhərinə göndərilib.

Aksiyanın səmərəliliyini artırmaq üçün əhali arasında təbliğat işi davam etdirilir.

# Ölkə iqtisadiyyatında 1,5 milyona yaxın adam çalışır

2016-cı il yanvar ayının 1-nə olan məlumata görə Ölkə iqtisadiyyatında 1 milyon 495,8 min nəfər adam çalışır. Onlardan 877,4 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 618,4 min nəfəri qeyri dövlət sektorunda fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə muzdla işləyənlərin 22,6 faizi təhsil, 19 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,1 faizi sənaye, 8,9 faizi əhaliyyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,2 faizi tikinti, 4,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3 faizi meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi informasiya və rabitə, 17,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşdur.

İşçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə görə 5 faiz artmış, 466,4 manata çatmışdır.

# 1 mart—Ümumdünya Mülki Müdafiə Günüdür

Mülki Müdafiə təşkilatı əhalinin təhlükəsizliyini təmin edir. Bu qurumun əsas vəzifəsi əhaliyə sülh və müharibə dövrlərindəki fövqəladə hallarda mühafizə və fəaliyyət qaydalarını öyrətməkdən ibarətdir.

Beynəlxalq Mülki Müdafiə Təşkilatı 1991-ci ildə yaranmış, 1972-ci ildən etibarən Təşkilatın Baş Məclisinin qərarı ilə hər il martın 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir. Son məlumata görə bu təşkilata dünyanın 55-ə yaxın ölkəsi qoşulub. Azərbaycan Respublikası isə 1933-cü ildə bu humanitar təşkilatın üzvlüyünə qəbul edilmiş və onun keçirdiyi bütün tədbirlərin fəal iştirakçısıdır. BMT-nin əhatə etdiyi dövlətlərdə məqsəd dinc əhalinin mühafizəsi sahəsindəki təcrübəni ümumiləşdirib yaymaq, habelə təbii fəlakətlər və iri qəzalar zamanı dövlətlərarası qarşılıqlı yardım təşkil etməkdir.

Elm və texnikanın sürətlə inkişaf etdiyi son dövrlərdə insanların təhlükəsizliyinin təminatı indi daha mühüm əhəmiyyət kəsb edir. Çünki mürəkkəb sistemlərin tətbiqi əsasən də təbii, texnogen, ekoloji hadislərin mövcudluğu, ətraf mühitə, xüsusən də əhalinin həyatına, sağlamlığına, bir sözlə, təhlükəsizliyinə təsirini göstərir.

Son illər ölkəmizdə bu sahəyə də xüsusi diqqət yetirilir. On il əvvəl Fövqəladə Hallar Nazirliyi, onun maddi-texniki bazası yaradıldı, müasir texniki avadanlıq alındı.

Bütün hallarda təhlükə haqqında xəbərdarlığın əsas vasitəsi radio və televiziyadır. Lakin əhalini daha tez xəbərdar etmək üçün fövqəladə hallarda sirenalardan, nəqliyyat vasitələrinin siqnalarından da istifadə edilir.

Dünya sürətlə dəyişdiyi üçün əhalinin mülki müdafiəyə hazırlanmasında təlimlərin, məşqlərin kompleks yoxlamaların böyük əhəmiyyəti vardır. Belə tədbirlər zamanı mühafizəyə hazırlığın vəziyyətinə bir növ baxış keçirilir, çatışmazlıqlar aradan qaldırılır, ekstremal hallarda necə hərəkət etmək yolları və üsulları işçilərə əyani surətdə göstərilir, mülki müdafiə rəhbərləri idarəetmə vərdişləri qazanırlar. Mühafizəyə hazırlığın düzgün təşkili həm də işçilərin MM biliklərinə və vərdişlərinə yiyələnmələri, vaxtaşırı keçirilən təlimlər və məşqlər kollektiv və fərdi mühafizə vasitələrinin daim saz vəziyyətdə saxlanılması deməkdir.

**«Qəbələ».**

# ELANLAR

2005—2006-cı tədris ilində Qəbələ şəhər 1 saylı tam orta məktəbinin XI sinfini bitirmiş məzun **Əhmədov Pərviz Tapdıq oğluna** verilmiş **296004 №-li attestat** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 nömrəli qərarla Yeni Dizaxlı kənd sakini **Səfərçinov Mirzəmməd Məmməd oğlunun** və **ailə üzvlərinin adına** verilmiş JN 089 A nömrəli (kodu 40606018) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Polis Şöbəsi tərəfindən 4 avqust 2012-ci il tarixdə Qəbələ şəhər sakini **Əfəndiyev Sahib Cavanşir oğluna** verilmiş seriya AZE 09215444 №-li Azərbaycan Respublikası vətəndaşının **şəxsiyyət vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Oqtay Məmmədova,** yaxın qohumu

**QALİB MƏSİMOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

F. Həmidov adına Bunud kənd tam orta məktəbin kollektivi iş yoldaşları **Ülfət Əzizova,** anası

**GÜLQƏLƏM XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.